Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namaza başlayanda əllərini çiyinləri səviyyəsində qaldırardı,

İbn Ömərdən (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir ki: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namaza başlayanda əllərini çiyinləri səviyyəsində qaldırardı, həmçinin rukuya getmək üçün təkbir gətirdikdə və başını rukudan qaldırdıqda da əllərini qaldırardı və "Səmia-Llahu limən həmidəh, Rabbənə və ləkəl-həmd" deyərdi, səcdə edərkən isə bunu etməzdi.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz əsnasında üç yerdə əllərini çiyin səviyyəsində qaldırardı ki, bu da çiyin sümüyü ilə qol sümüyünün birləşdiyi yerdir. Birinci yer: Namaza ihram (açılış) təkbiri ilə başladıqda. İkincisi: Rukuya getmək üçün “Allahu Əkbər” dedikdə. Üçüncüsü: Rukudan başını qaldırdıqda və "Səmiəllahu limən həmidəh, Rabbənə və ləkəl-həmd" dedikdə. Nə səcdə etməyə başlayanda, nə də səcdədən qalxarkən əllərini qaldırmazdı.

http://sunnah.global/hadeeth/az/show/3095